**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**Təsdiq edirəm:** ____________

**“İqtisadiyyat” kafedrasının**
**müdiri: i.ü.f.d., dos.S.İ.Hümbətova**
**12 sentyabr 2025-ci il**

# İQTİSADİYYATA GİRİŞ

## FƏNNİ ÜZRƏ İŞÇİ TƏDRİS PROQRAMI
**(Sillabus)**

<table>
<tr><td>Fənnin adı</td><td colspan="6">İQTİSADİYYATA GİRİŞ</td></tr>
<tr><td>Fakültə</td><td colspan="6">İqtisadiyyat və idarəetmə/Maliyyə və mühasibat/Biznes və menecment</td></tr>
<tr><td>Kafedra</td><td colspan="6">İqtisadiyyat</td></tr>
<tr><td>Fənnin kodu</td><td colspan="6">00021</td></tr>
<tr><td>Fənnin növü</td><td colspan="6">Əsas</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="6">Azərbaycan</td></tr>
<tr><td>Tədrisin forması, qrup, tədris yükü</td><td>Əyani/qiyabi<br>qrup</td><td>Semestr<br>yaz/payız</td><td>Tədris yükü:<br>60 saat</td><td>Mühazirə<br>30 saat</td><td>Məşğələ<br>30 saat</td><td>Kredit<br>6</td></tr>
<tr><td>Fənni tədris edən müəllim: S.A.A</td><td colspan="6"></td></tr>
<tr><td>Tələbələr üçün məsləhət vaxtları:</td><td colspan="6"></td></tr>
<tr><td>Müəllimlə əlaqə: İş telefonu, e-mail ünvanı</td><td colspan="6"></td></tr>
<tr><td colspan="7">Bu sillabus N.Qreqori Mənkyunun “Ekonomiksin əsasları”, dərsliylərinə uyğun olaraq hazırlanmışdır.</td></tr>
</table>

| | |
|---|---|
| **III. Fənnin təsviri** | İqtisadiyyata giriş" fənni – 6 kreditdir. "Bu fənn əsas fənnləri siyahısına daxil olmaqla, bakalavr pilləsində təhsilalanlara iqtisadi təhlil və mühakimənin əsaslarını təqdim etmək məqsədilə tədris edilir və onların sonrakı mərhələlərdə keçəcəyi mikroiqtisad, makroiqtisad, beynəlxalq iqtisad kimi daha dərin və ixtisaslaşmış fənnlərin təməlini təşkil edir. "İqtisadiyyata giriş" fənni təhsil proqramı üzrə təhsilalanların əldə etdiyi ali riyaziyyat və iqtisadi fikrin tarixinə dair biliklərə istinad edir, fənn çərçivəsində resursların məhdudluğu şəraitində seçim problemləri, alternativ dəyər, tələb və təklif mexanizmi, bazar tarazlığı, istehsalçı və istehlakçı davranışı, bazar strukturları, dövlətin bazara müdaxiləsi, makroiqtisadi göstəricilər, iqtisadi artım, inflyasiya, işsizliyin növləri öyrədilir. |
| **IV. Fənnin məqsədi və vəzifələri** | **Fənnin tədrisinin məqsədi:**<br><br>Fənnin tədrisinin konkret məqsədləri aşağıdakılardır:<br>-Təhsilalanların iqtisadın bir sosial elm kimi əhatə dairəsini qavramalarını təmin etmək;<br>-Təhsilalanları iqtisadi təhlildə istifadə edilən əsas analitik alətlər və məntiqi mühakimə üsulları ilə tanış etmək;<br>-Təhsilalanları iqtisadi təhlildən əldə edilən əsas nəticələrlə tanış etmək və təhsilalanların onların təşkilati və siyasi nəticələri haqqında anlayışını inkişaf etdirmək;<br>-Təhsilalanlarda iqtisadi mövzularda müzakirələrə qoşulma bacarığı formalaşdırmaq.<br>Bütövlükdə iqtisad elminin, o cümlədən də "İqtisadiyyata giriş" fənnin öyrənilməsi təhsilalanlara yaşadıqları dünyanı daha yaxşı dərk etmək, iqtisadi proseslərdə daha rasional şəkildə iştirak etmək və dövlətin iqtisadi siyasətinin potensialını və hüdudlarını daha yaxşı anlamaq imkanı verir.<br>**Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:**<br><br>- İqtisad elminin predmeti və metodları haqqinda biliklər əldə etmək;<br>- Tarazlıq qiyməti, tələb və təklif elastikliyi istehsalın optimal həcmi və optimal istehlak səbətini hesablama vərdişi əldə etmək:<br>- İstehlakçının və istehsalçının izafi faydasının formalaşması spesifikliyilə tanış olmaq;<br>- Ümumi daxili məhsulun hesablanması üsullarını öyrənmək;<br>**Fənnin, tədris planının digər fənləri arasında yeri.**<br>İqtisadiyyata giriş" fənni digər sosial elmlərdən fərqli olaraq iqtisadın əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, iqtisadi təhlilin prinsipləri nisbətən sadə və yaxşı müəyyən edilmişdir və buna görə də onlardan həyatın bir çox müxtəlif sahələrində insan davranışını təhlil etmək üçün istifadə edilə bilir. Buna görə də demək olar ki, iqtisad daha çox düşüncə tərzidir.<br>"İqtisadiyyata giriş" fənni təsviri xarakterli bəzi məlumatları təqdim etsə də (məsələn, ölkənin iqtisadi məhsulunun dəyərinin hesablanması), onun əsas diqqət mərkəzi iqtisadi təhlil alətləri kimi istifadə olunan konsepsiya və modellərin təqdim edilməsinə yönəlmişdir. İqtisadın alternativ dəyər, marjinal təhlil kimi konsepsiya və yanaşmaları geniş tətbiq dairəsinə malikdir və cəmiyyətin və insanların həyatının müxtəlif aspektlərini anlamaqda faydalı ola bilər.<br>Bu fənni yaxşı mənimsəyə bilmələri üçün təhsilalanların riyaziyyatın əsasları üzrə minimum biliklərə (bir dəyişənli funksiyalar və onların təsviri, törəməsi və tənliklər sistemləri) malik olması tələb olunur. Təhsilalanların əvvəlki dövrlərdə öyrəndikləri riyazi alətlər, bu fənndə təqdim edilən problemləri və məsələləri doğru şəkildə həll etmələri üçün faydalı olacaqdır. |

| | |
|---|---|
| **V. Öyrənmənin nəticələri:** | "İqtisadiyyata giriş" fənninin mənimsənilməsindən sonra tələbələr:<br>**Bilməlidirlər:**<br>1.marjinalist təhlilin prinsipləri və metodologiyasını;<br>2.resurslardan rasional istifadə probleminin məzmununu;<br>3.bazar qiymətlərinin formalaşması qanunauyğun-luqlarını;<br>4.bazarın dövlət tənzimlənməsi alətləri və nəticələrini;<br>5.bazar subyektlərinin davranış prinsiplərini;<br>6.müxtəlif bazar strukturlarının fəaliyyət xüsusiyyətlərini;<br>**Bacarmalıdırlar**:<br>1. Kursu tamamladıqdan sonra təhsilalanlar aşağıdakı ümumi bacarıqlara sahib ola biləcəklər:<br>Əsas anlayışları açıqlamaq və iqtisadi təhlildə istifadə edilən model və metodları təsvir etmək;<br>-Real dünya məsələlərini iqtisadi modelləşdirmə yoluyla ifadə etmək;<br>-Real dünya problemlərinin təhlilində iqtisadi modelləri tətbiq etmək və onlardan istifadə etmək;<br>-Tutarlı ümumi prinsiplərə əsaslanan hədəflənmiş arqumentlər qurmaq;<br>-İqtisadi təhlildə istifadə edilən model və metodların potensialını və məhdudiyyətlərini qiymətləndirməklə tənqidi və strateji düşünmə bacarıqlarını inkişaf etdirmək;<br>-Mürəkkəb iqtisadi firkirləri geniş kütlələrin anlaya biləcəyi formada çatdırmaq;<br>-Müasir iqtisadi məsələlər, meyllər və siyasət müzakirələri üzrə məlumatlılığı və iştirakçılığı artırmaq. |
| **VI. Fənnin mühazirə mövzuları** | **Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:**<br>1. İqtisad elminin predmeti, əsas anlayışları və prinsipləri<br>2. İqtisadçıların əsas yanaşmaları, təhlil metodları və alətləri<br>3. Qarşılıqlı asıllıq və ticarətin faydaları: nisbi üstünlük prinsipi<br>4. Tələb, təklif və bazar tarazlığı<br>5. Tələb və təklifin elastikliyi<br>6. Dövlətin qiymət və vergi siyasətinin bazarın fəaliyyətinə təsirləri<br>7. İstehlakçılar, istehsalçılar və bazarların səmərəliliyi<br>8. Kənar təsirlər və həlli yolları<br>9. İctimai mal və ortaq resurslar<br>10. İstehsal xərcləri<br>11. Ölkə gəlirinin ölçülməsi: Ümumi Daxili Məhsul<br>12. Yaşayış xərcinin ölçülməsi: İstehlakçının Qiymət İndeksi<br>13. İqtisadi artımın əsasları<br>14. İşsizlik və onun təbii dərəcəsi<br>15. Açıq iqtisadiyyatın makroiqtisadiyyatı: əsas anlayışlar |
| **VII. Fənnin mühazirə mətnləri** | Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında universitetin veb saytındakı tələbə kabinetində yerləşdirilir |
| **VIII. Fənnin tədris metodologiyası** | Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.<br>Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi |

| | |
|---|---|
| | keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.<br>Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar. |
| **IX. Əsas dərslik və dərs vəsaitləri** | **Əsas dərslik**<br>N. Qreqori Mənkyu. *Ekonomiksin əsasları*. Azərbaycan dilində. (E.İbadov və.b. tərcüməsi)<br>N. Gregory Mankiw. *Principles of Microeconomics*. Eighth Edition.<br>Грегори Мэнкью. Принципы микро*экономики.Питер.*<br>**Əlavə dərsliklər**<br>A. Daripa.Microeconomics. LSE.<br>David R. Hakes.Study Guide to Accompany Principles of Microeconomics, Seventh Edition |

**X. Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| Həftə № | Mövzular | Mühazirə | Məşğələ | Öyrənmə hədəfləri |
|---|---|---|---|---|
| 1 | **İqtisad elminin predmeti, əsas anlayışları və prinsipləri** | 2 | 2 | 1. iqtisad elminin yaranması və inkişafının əsas mərhələləri<br>2. müasir iqtisad elminin istiqamətləri<br>3. "ekonomiya","ekonomika"(iqtisa-diyyat), "iqtisadi nəzəriyyə", "siyasi iqtisad", "ekonomiks" anlayışlarının nisbəti<br>4. qıtlıq (scarcity)<br>5. iqtisad elmi (economics)<br>6. səmərəlilik (efficiency)<br>7. ədalət (equity)<br>8. alternativ dəyər (opportunity cost)<br>9. marjinal dəyişmə (marginal changes)<br>10. bazar iqtisadiyyatı (market economy)<br>11. bazarın iflası (market failture)<br>12. kənar təsirlər (externality)<br>13. bazar gücü (market power)<br>14. məhsuldarlıq (productivity)<br>15. inflyasiya (inflation)<br>16. Filips əyrisi (Philips curve) |
| 2 | **İqtisadçıların əsas yanaşmaları, təhlil metodları və alətləri** | 2 | 2 | 1. Iqtisadçi kimi düşünmə tərzi<br>2. Elmi metod: müşahidə, nəzəriyyə<br>3. Iqtisadi modellər<br>4. dövri axın cədvəli (circular-flow diagram)<br>5.istehsal imkanları həddi (production possibilities frontier)<br>6. mikroiqtisadiyyat (microeconomics)<br>7. makroiqtisadiyyat (macroeconomics)<br>8. pozitiv fikir (positive statements)<br>9. normativ fikir (normative statements) |
| 3 | **Qarşılıqlı asıllıq və ticarətin faydaları: nisbi üstünlük prinsipi** | 2 | 2 | 1. mütləq üstünlük (absolute advantage)<br>2. nisbi üstünlük (comparative advantage)<br>3. alternativ dəyər (opportunity cost)<br>4. idxal (imports)<br>5. ixrac (exports) |

| | | | | |
|---|---|---|---|---|
| 4 | **Tələb, təklif və bazar tarazlığı** | 2 | 2 | 1. bazar (market)<br>2. rəqabətli bazar (competitive market)<br>3. tələbin həcmi (quantity demanded)<br>4. tələb qanunu (law of demand)<br>5. tələb qrafiki (demand schedule)<br>6. tələb əyrisi (demand curve)<br>7. normal əmtəə (normal good)<br>8. keyfiyyətsiz əmtəə (inferior good)<br>9. əvəzedicilər (substitutes)<br>10. tamamlayıcılar (complements)<br>11. "digər şərtlər sabit qaldıqda" (ceteris paribus)<br>12. təklifin həcmi (quantity supplied)<br>13. təklif qanunu (law of supply)<br>14. təklif qrafiki (supply schedule)<br>15. təklif əyrisi (supply curve)<br>16. tarazlıq (equilibrium)<br>17. tarazlıq qiyməti (equilibrium price)<br>18. tarazlıq miqdarı (equilibrium quantity)<br>19. izafilik (surplus)<br>20. çatışmazlıq (qıtlıq) (shortage)<br>21. tələb və təklif qanunu (law of supply and demand) |
| 5 | **Tələb və təklifin elastikliyi** | 2 | 2 | 1. elastiklik (elasticity)<br>2. tələbin qiymət elastikliyi (price elasticity of demand)<br>3. məcmu gəlir (total demand)<br>4. tələbin gəlir elastikliyi (income elasticity of demand)<br>5. tələbin çarpaz-qiymət elastikliyi (cross-price elasticity of demand)<br>6. təklifin qiymət elastikliyi (price elasticity of supply) |
| 6 | **Dövlətin qiymət və vergi siyasətinin bazarın fəaliyyətinə təsirləri** | 2 | 2 | 1. qiymət maksimumu (price ceiling)<br>2. qiymət minimumu (price floor)<br>3. vergi və vergiyə cəlb olunma<br>4. elastiklik və vergiyə cəlb olunma |
| 7 | **İstehlakçılar, istehsalçılar və bazarların səmərəliliyi** | 2 | 2 | 1. rifah halının təhlili üzrə iqtisadi nəzəriyyələr (welfare economics)<br>2. ödəməyə hazır olma (willingness to pay)<br>3. istehsalçının izafi faydası (producer surplus)<br>4. istehlakçının izafi faydası (consumer surplus)<br>5. məsrəflər (cost)<br>6. səmərəlilik (efficiency)<br>7. ədalətlilik (equity) |
| 8 | **Kənar təsirlər və həlli yolları** | 2 | 2 | 1. kənar təsir (externality)<br>2. kənar təsirin daxililəşdirilməsi (internalizing an externality)<br>3. Koas teoremi (Coase theorem)<br>4. sövdələşmə xərcləri (transaction cost)<br>5. Piqo vergisi (Pigovian tax)- |
| 9 | **İctimai mal və ortaq resurslar** | 2 | 2 | 1. istehlakı qadağan edilə bilən əmtəə (excludability)<br>2. istehlak etdikcə tükənən əmtəə (rivalry)<br>3. özəl əmtəələr (private goods)<br>4. ictmai əmtəə (public goods)<br>5. ortaq sərvətlər (common resources)<br>6. müftəxor (free rider) |

| | | | | |
|---|---|---|---|---|
| | | | | 7. məsrəf-mənfəət təhlili (cost-benefit analysis)<br>8. Ortaqların Faciəsi (Tragedy of the Commons) |
| 10 | **İstehsal xərcləri** | 2 | 2 | 1. məcmu gəlir (total revenue)<br>2. məcmu xərc (total cost)<br>3. mənfəət (profit)<br>4. aşkar xərclər (explicit costs)<br>5. gizli xərclər (implicit costs)<br>6. iqtisadi mənfəət (economic profit)<br>7. muhasibat uçotu üzrə mənfəət (accounting profit)<br>8. istehsal funksiyası (production function) |
| 11 | **Ölkə gəlirinin ölçülməsi: Ümumi Daxili Məhsul** | 2 | 2 | 1. mikroiqtisadiyyat (microeconomics)<br>2. makroiqtisadiyyat (macroeconomics)<br>3. ümumi daxili məhsul (Gross Domestic Product-GDP)<br>4. istehlak (consumption)<br>5. investisiya (investment)<br>6. dövlət xərcləri (government purchases)<br>7. xalis ixracat (net exports)<br>8. nominal ÜDM (nominal GDP)<br>9. real ÜDM (real GDP)<br>ÜDM deflyatoru (GDP deflator) |
| 12 | **Yaşayış xərcinin ölçülməsi: İstehlakçının Qiymət İndeksi** | 2 | 2 | 1.istehlakçının qiymət indeksi (İQİ) (consumer price index - CPI)<br>2. inflyasiya səviyyəsi (inflation rate)<br>3.istehsalçının qiymət indeksi (producer price index)<br>4.yaşayış minimumunun hesablanması<br>5. ÜDM defılyatoru istehlakçının qiymət indeksinə qarşı<br>6. indeksləşdirmə (indexed) |
| 13 | **İqtisadi artımın əsasları** | 2 | 2 | 1.məhsuldarlıq (productivity)<br>2.fiziki capital (physical capital)<br>3.insan kapitalı (human capital)<br>4.təbii ehtiyatlar (natural resources)<br>5.texnoloji biliklər (technological knowledge) |
| 14 | **İşsizlik və onun təbii dərəcəsi** | 2 | 2 | 1. işçi qüvvəsi (labor force)<br>2. işsizlik dərəcəsi (unemployment rate)<br>3. əhalinin işə yararlı hissəsi (labor-force participation rate)<br>4. işsizliyin təbii dərəcəsi (natural rate of unemployment)<br>5. dövri işsizlik (cyclical unemployment)<br>6. ruhdan düşmüş işçilər (discouraged workers)<br>7.friksional işsizlik (frictional unemployment)<br>8.struktur işsizlik (structural unemployment)<br>9.iş axtarışı (job search)<br>10. işsizlikdən sığortalanma (unemployment insurance)<br>11. həmkarlar ittifaqı (union)<br>12.kollektiv müzakirə (collective bargaining)<br>13.tətil (strike)<br>14.səmərəli əmək haqqı (efficiency wages) |
| 15 | **Açıq iqtisadiyyatın makroiqtisadiyyatı: əsas anlayışlar** | 2 | 2 | 1.qapalı iqtisadiyyat (closed economy)<br>2.açıq iqtisadiyyat (open economy)<br>3.ixrac (exports) |

| | | | | |
|---|---|---|---|---|
| | | | | 4.idxal (imports)<br>5.xalis ixrac (net exports)<br>6.ticarət balansı (trade balance)<br>7.ticarət profsiti (trade deficit)<br>8.ticarət defisiti (trade surplus)<br>9.balansladırılmış ticarət (balanced trade) |
| **Yekun imtahan** | | | | |

## SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

## DƏRSƏ DAVAMİYYƏT

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

## FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ (*Əyani təhsilalma forması üzrə*)

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

**B = (((b1+b2+b3+...+bn)/s)*m)/10**

**Burada,**

B - yekun aktivlik balı;

b - seminar dərslərində alınan müxtəlif ballar;

s - semestr ərzində verilən cavabların sayı;

m - aktivlik balına ayrılan maksimal bal;

10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən "0" bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə "0" bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - "əvəzgün" verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Qabiliyyət tələb edən fənlər üzrə ara qiymətləndirmə semestr ərzində yerinə yetirilən və hər biri 5 bal üzərindən qiymətləndirilən 6 fərdi işin (hər ay ərzində 2 iş olmaqla) qiymətləndirilməsi əsasında təmin olunur.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq

və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| **91-100 bal** | **əla** | **A** |
|---|---|---|
| **81-90 bal** | **çox yaxşı** | **B** |
| **71-80 bal** | **yaxşı** | **C** |
| **61-70 bal** | **kafi** | **D** |
| **51-60 bal** | **qənaətbəxş** | **E** |
| **51 baldan aşağı** | **qeyri-kafi** | **F** |

***QEYD:*** İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.